# AZƏRBAYCAN TARİXİ POEMALARINDA QADIN ŞAİRLƏRİMİZİN BƏDİİ OBRAZININ TƏRƏNNÜM XÜSUSİYYƏTLƏRİ

**Giriş.** Xalqımızın tarixində Azərbaycan qadını bir hökmdar, dövlət xadimi, xalq qəhrəmanlarımızın ən yaxın silahdaşı kimi silinməz izlər qoyub, XII yüzillikdən üzü bəri ilk qadın şairimiz Məhsəti Gəncəvidən başlayaraq bir çox yaradıcı simalar söz sənətimizə qiymətli incilər bəxş edib. Sonrakı dövrlərdə Natəvan, Heyran xanım, Aşıq Pəri, Ağabəyim ağa və daha neçə-neçə şairəmiz öz dünyalarından boylanaraq dünyanın bütün duyğularını, sevinc və kədərini misralarında ifadə etmiş, dövrün dərd və iztirablarına qarşı "qadınlarımızın göz yaşlarından doğan dəryalar, ah-nalələrindən buludlanan səmalar, ağılardan parçalanan ürəklər"i (1, s. 4) (Rəfibəyli Nigar. İşıqlı həyat həsrətində Azərbaycan qadın şairləri antologiyası. Bakı, Avrasiya Press, 2005, 256 s.) ilə poeziyaya insanlıq naminə qadın üsyanının çırpıntılarını gətirmiş, qadın azadlığı uğrunda sənətin gücünü nümayiş etdirmişlər. Əsərlərində ən incə insani hisslərin tərənnümünə can atmış, bütün yaradıcılığını bu amala həsr etmiş, həyatlarında uğursuzluğa düçar olmuş, zaman-zaman ailəsindən, sevgisindən, övladından, vətənindən ayrı salınmış, yaşadıqları zəmanənin məşəqqətlərini çəkmiş qadın şairlərimiz əsla sınmamış, öz sənətləri ilə insanı gözəlliyə, paklığa, xeyir əməllərə səsləmişlər.

Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus mövqeyi olan, çoxəsrlik tarixə malik xalqımızın zəngin mənəvi dəyərlərini formalaşdıran qadın şairlərimizin müxtəlif janrlı ədəbi əsərlərdə bədii obrazı yaradılmış, onların dövrü, mühiti, dünyagörüşü, yaradıcılığı, şəxsiyyəti, xalqın səadəti və tərəqqisi uğrunda mübarizəsi tarixi poemalarda tərənnüm olunmuşdur. Məqalədə Məhsəti Gəncəvi, Ağabəyim ağa və Natəvan obrazlarının canlandırıldığı Xalq şairləri M.Dilbazi və N.Rəfibəylinin "Məhsəti", N.Kəsəmənlinin "Yaddan çıxmaz Qarabağ", M.Rahim və H.Arifin "Natəvan" poemalarının sənətkarlıq xüsusiyyətləri hər bir bədii obrazın fərqli cəhətlərinin ümumiləşdirilməsi baxımından araşdırılır.

Poetik ilhamı xalqdan, onun mənəvi dəyərlərindən və tarixi keçmişindən qaynaqlanan Mirvarid Dilbazi (1912-2001) 1940-1945-ci illərdə XII əsr Azərbaycan poeziyasının böyük simalarından sayılan ilk qadın şairə Məhsəti Gəncəviyə (1113-1205) həsr olunmuş "Məhsəti" (2) (Dilbazi Mirvarid. Seçilmiş əsərləri. 2 cilddə. 2-ci cild. Şeirlər və poemalar. Bakı, "Gənclik", 1968, 262 s.) tarixi poemasını yazmışdır. Məhsəti obrazının dövrün qüdrətli şairəsi, mükəmməl savada malik insan, qadın hüquqlarının müdafiəçisi, xalqın savad alması yolunda cəfa çəkən sənətkar kimi təqdim olunduğu əsər klassik epik şeiri formasında yazılmışdır. Bu fakta diqqət yetirən akademik Rafael Hüseynov qeyd edir ki, "...Bütün poema məsnəvi şəklindədir, 11 hecalı misralardan ibarətdir. Arada əruzla yazılmış qəzəllər əsərə bir həzinlik gətirir..." (3, s. 96) (Hüseynov Rafael. "Məhsəti" poeması haqqında (fraqment) Ağabalayeva S. Zamanla üz-üzə. Bakı, "Təhsil", 2013, 176 s.)

"Məhsəti", "Məktub", "Məhsətinin Nizamiyə məktubu" və "Nizaminin Məhsətiyə məktubu" adlı hissələrdən ibarət olan poemanın əvvəlində müəllif "mükəddər fikrə gedərək" oxucunun diqqətini səfərbər etmək üçün onu real həyatdan ayırır və uzaq əsrlərə – Məhsəti dünyasına aparır, əsərin sonunda da bu priyomdan istifadə edir. Oxucu ilk misralardan könlü qan ağlayan, yanıqlı dərdini kamanda dilləndirən füsunkar qadın obrazı ilə rastlaşır, bu motiv əsər boyu davam edir, onun ideya məzmununu tamamlayır. Açılan mənzərədən – cildlərlə əlyazmalardan, dəstə-dəstə qalaqlanmış kağızlardan anlaşılır ki, eşidilən səs bir şair qızın zəmanəyə üsyan səsidir. Müəllifin poema qəhrəmanı ilə dialoqu formasında verilən ilk hissədə qadınlığın faciəsi ifadə olunur.

Dedim: nə yaraşır sən kimi cana
Gecələr şam kimi sübhətək yana?!
Aç mənə bu sirri, söylə görüm bir
Sən kimsən, etdiyin bu fəryad nədir?

Eşidilən cavab oxucunu orta əsrlər şəraitində qadın hüquqsuzluğundan, dövrün mənəvi buxovlarından azadlığa can atan şairənin üzləşdiyi müşküllərdən və onun bu sınaqlardan çıxmaq cəhdlərindən agah edir.

Yaman bir əyyamda doğulan, özünü əsir olunmuş quşa bənzədən Məhsətinin dilindən verilən cavab dövrün səciyyəsini yaradır. Zəmanənin onu susdurmaq istəyi, elsiz, aşiyansız, sevgisiz yaşamağa məcbur etməsi lirik qəhrəmanın dözülməz iztirablarını ifadə edir. İlk misralardan başlayaraq M.Dilbazi "...böyük rübai ustasının (Məhsətinin – S.Ə.) əməl və arzularını, Vətən həsrəti ilə alışıb-yanan şairənin obrazını bədii boyalarla" əks etdirmişdir" (4, s. 40) (Əliyeva İ.S. Musaköydən başlanan ömür Bakı dövlət universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2013, № 1, s. 38-43).

Poemada başlıca olaraq ədəbi obraz Məhsətinin dövrün tanınmış şairi Xətib oğlu ilə münasibətləri və tarixi şəraitlə bağlı dərdləşmələri, onların yeni üsulla məktəb açmaq düşüncələri, şairənin ərinə orta əsr qadınının vəziyyətindən şikayətləri yer alır. Əsərdə Məhsətinin sadə insanlara qayğıkeş münasibəti – böyüdüb boya-başa çatdırdığı Ayişənin toyunu etməsi və ona cehiz verməsi, döyüşlərdə altı cəngavər oğlunu itirmiş goranlı qoca Nəsibə ailəsini dolandırmaq üçün bağ bağışlaması şairənin xalqın ağır vəziyyətini qismən də olsa, yaxşılaşdırmaq cəhdi kimi qiymətləndirilir.

M.Dilbazi Məhsətinin duyğular aləmini, onun bəzən ümidsizliyə qapanmasını, dini ideologiyanın hakim olduğu dövrdə dünyəvi hisslər tərənnüm edən gözəl rübailər yazmasını önə çəkməklə kifayətlənmir, onu daha böyük amalların düşündürdüyünü dilə gətirir. Məhsətini dövrün mütərəqqi görüşlü sənətkarlarından biri kimi qiymətləndirən müəllif onu millətin taleyini düşünən, onun xoş gələcəyi üçün əməli işlər görən, xalqın dərdini çəkən el anası orazında təqdim edir:

Məni qaranlığın dərdi qocaldır.
Gəl bu qaranlığa bir şölə saçaq,
Biz yeni üsulla məktəblər açaq.
Sən öz istedadın, öz elmin ilə,
Bizim oğullara atalıq eylə.
Mən də qızlar üçün olaram ana,
Biz belə verərik borcu dövrana.

Qəlbi səmimi duyğuların, millətini qaranlıqlardan qurtarmaq istəyinin canlı ifadəsi olan bu bənddə Məhsətinin şair və el anası kimi xarakteri yaradılır. M.Dilbazinin yanaşmasında XII əsr Azərbaycan şairəsi Məhsəti qabaqcıl şəxsiyyət kimi arzuladığı yüksək ideallara çata bilməsə də, dövrün gerçəkliyi fonunda arzularının qəmi ilə yaşamaq və onların əzabını çəkmək ona xoşdur.

Poemada zaman-zaman dövrün ağırlığını, qadınların vəziyyətini, dilsiz mal kimi alınıb satılan qizların arzu və istəyinin yalnız xəyal olduğunu önə çıxaran müəllif millətin taleyində yaratdığı qəhrəmanının əqlinin, zəkasının günəş kimi parlamasında təsəlli tapır.

M.Dilbazi şair təxəyyülünün nəticəsi kimi əsərdə dövrün böyük şairlərini – şeir dünyasının şöhrəti Xaqanini, sənət asimanında gövhər sayılan Fələkini, Əbül-Ülanı, ustad Beyləqanini Məhsətinin evində təşkil etdiyi ədəbi məclisdə görüşdürür. Məclisdə iştirak edən, "söhbəti qısa və aydın olan" gənc Nizamiyə Məhsəti üz tutaraq:

İzləyib məftunun olmuşam, inan.
Sən hələ Məşriqdə yenicə yanan
Günəşsən, Nizami, dur yanıma gəl!
Qoy bizim sənətə yeni bir təməl.

onun sənətini yüksək qiymətləndirir, poeziya Günəşimiz olacağının müjdəsini verir. Bu parçada məclis iştirakçıları Məhsətinin elm və sənət aşiqi olması, məktəb açmaqla hünər göstərməsi, dövrandan öndə getməsi fikirləri ilə onu xarakterizə edirlər. Tarixdən məlumdur ki, Məhsəti həqiqətən "ətrafına gənc şairləri toplamışdı və yalnız Azərbaycan və Şərq ədəbiyyatında deyil, bütövlükdə dünya ədəbiyyatındakı ilk şair məclislərindən birini yaratmışdı" (5, s. 9) (Hüseynov Rafael. Keçmişin, indinin və gələcəyin şairi Gəncəvi Məhsəti. Rübaidən rübaiyə. Bakı, "Elm və təhsil", 2012, 208 s.) fikri poemada göstərilən, lakin "heç bir tarixi əsasa malik olmayan" (3, s. 96) məclisə şamil oluna bilməz.

M.Dilbazinin poema qəhrəmanı daim əzab çəkir, buna səbəb xalqın ağır güzəranı, elmə, sənətə qiymət verilməməsi, qızların talesizliyi, qismətinə dövranın qan qələmiylə kədər üstünə kədər yazması göstərilir. Əsərdə Sultan Səncərin vəziri Məhsətidən, "onun yüngül əxlaqlı rəftarından, kaman çalıb şeir yazmasından, haqqı unutduğundan, fitnələrə uyub şər yol tutmasından" şikayətlənir, şahdan buna əlac qılmasını diləyir:

Hər qızın əlinə verib bir kaman,
Özü məktəb açıb, təlim edir, şah.
Bunca küfürləri götürməz allah.
Bütün şairləri yığıb başına,
Məhsəti Gəncədə olmuş hökmran.

Müəllif yüksək istedad sahibi olan, mərdliyi, sadə insanlarla səmimi rəftarı ilə ad-san qazanmış, "...ömrünün müəyyən müddətini Sultan Mahmud Səlcuqi və Sultan Səncər sarayında keçirmiş" (6, s. 36) (Yusifli Xəlil. Rəvayətlər dumanı arxasından boylanan sənətkar Məhsəti Gəncəvi. Rübailər. Lider nəşriyyatı, Bakı, 2004, 144 s.) Məhsətinin Sultan Səncərlə qarşılaşmasında şairəni əsrin mütərəqqi fikirli söz ustadı kimi təsvir edir, onun hökmdar sınağından ləyaqətlə çıxdığını iftixar hissilə nəql edir, ədəbi qəhrəmanının mənəvi ucalığını, qüdrətini nümayiş etdirir. Şah Məhsətini qələminin küfr saçmasında, məclislər düzəldib söz deməsində günahlandırır, cavabında:

Xalqa xidmət edir mənim qələmim,
Qapını yad deyil, dost açır mənim.
Şah bunu bilsin ki, mən sənətkaram,
Sənət olan yerdə daima varam.

ondan eşitdiyi sözlər həqiqət olsa da, sultanı cəza verməkdən döndərmir:

Şah dedi: gəl, vəzir, ağlımı alma,
Yenə ortalığa qan sözü salma.
Yaz ki, tərk eyləsin bu gün Gəncəni.

Məhsəti şahdan onu doğma Gəncədə öldürməyi, vətəndən uzaqlaşdırmamağı xahiş edir:

Məhsəti söylədi: bu doğma Gəncə
Ömürdən, gündən də şirindir məncə.
Şairin allahı vətəndirsə gər,
Vətəndə ölməkdən o nə itirər?

Məhsətinin Sultan Səncərlə görüşü, Gəncədən ayrılması, Xətib oğlu ilə vidalaşması səhnələri poemada ən səmimi təsir bağışlayan, lirizmi və dramatizmliyilə seçilən, oxucu qəlbini riqqətə gətirən ifadələrlə işlənmişdir. Xətib oğlunun Məhsətidən:

Gəl, ey bəxt ulduzum, usan bu ahdan,
Aldığın töhfələr nə oldu şahdan? -

sualına:

Məni, Xətib oğlu, öldürür kədər!
Şahın əmri budur, sürgün olam tək.

eşitdiyi cavab onu "elə bil yüz il qocaltdı". Əsərdə xalqın Məhsətilə vida görüşünə gəlməsi, yolda şairənin səba yeli ilə, Gəncəyə uçan durnalarla dərdləşməsi qürbətə getmək məcburiyyətində qalan insanın qüssəsi səmimi hisslərlə, inandırıcı verilmişdir.

Durnalar səslənir dağlar dalından.
Məhsəti söyləyir: ey qatar-qatar,
Gəncə torpağına uçan durnalar,
Siz də Məhsətidən bəxtiyarsınız,
Özünüz hakimi-ixtiyarsınız.

Bu bənddə əsas fikir budur ki, ötkəm şəxsiyyəti, üstün ağlı, nəhayətsiz duyğuları ilə hamıdan üstün olan Məhsəti bir anlıq da olsa, özünü bəxtiyar durnaların yerində görmək istəyir. Çünki karvan vətəndən uzaqlaşdıqca:

Susur Məhsətinin dərdli fəğanı,
Deyin: dərdə əsir olmayan hanı?
Ürək dalda qalır, üzülür candan,
Bəzən ürəksiz də yaşayır insan.

Məhsəti aylarla yol gedərək Zəncanı, Xorasanı keçib "üçüncü yazda" uzaq Hicazda məskunlaşır, qocalmış və xəstə halda qürbətdə yaşamalı olur. Akademik R.Hüseynovun "Mənbələrdə Məhsətinin Hicaza getməsi haqqında heç bir məlumata rast gəlmirik" (3, s. 96) fikrini nəzərə alsaq, poemadakı bu epizodun da müəllifinin bədii təxəyyülünün məhsulu olduğunu təsdiqləyə bilərik. Gözündə min qüssə, könlündə fəğan qürbətdə vətən həsrətindən yanıb qovrulan şairə doğma eilini qaranquşlardan xəbər alır, M.Dilbazi poema qəhrəmanının dərdini, fəryadını, qoca Şərqin də onunla birgə inildədiyini bildirir.

Əsər Məhsətinin Nizamiyə məktub yazması və ondan aldığı cavabla bitir. İki böyük sənətkarın məktub-cavab formasında dilləndirilməsi dövrün səciyyəsini müasir nəsillərə olduğu kimi çatdırmaq məqsədi güdür, onların zəmanəyə münasibəti, əsərləri, müasirləri haqda oxucularda təəssürat yaratmağa xidmət edir. Yad ellərdə fəraqdan yanan Məhsəti məktubunda şah saraylarını sənətkarın qəbri adlandırır, həmkarına "Günəşsən, üzünü tutmasın bulud" (2, s. 219), - deyə nəsihətini çatdırır. Məhsətiyə cavab göndərən Nizami şairənin xilası üçün şaha müraciət edir:

Ayrı bir təmənna gətirdi məni,
Anasız qoymasın şahım Gəncəni.
Böyük Məhsətini qaytar, amandır!

***(Davamı var)***

***Sitarə Əlizadə***
***Naxçıvan Dövlət Universitetinin dissertantı***